# Azərbaycan notariat tarixi

Azərbaycanda notariat sisteminin yaranmasının maraqlı tarixi vardır.

Bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da notariat hərəkətlərinin aparılmasının meydana gəlməsi dövlətlərin yaranması, inkişafa başlaması ilə yanaşı yazılı subutların yaranması ilə eyni vaxta təsadüf edir.

Azərbaycanın ərazisində ilk böyük quldarlıq dövləti Manna olmuşdur. Eramızdan əvvəl I minilliyin əvvəlində Azərbaycanın ilk quldarlıq dövlətlərində notariat hərəkəti olan vəsiyyətnamə həm yazılı, həm də şifahi formada tərtib edilirdi. Vəsiyyət edənin şahidlərin yanında etdiyi şifahi bəyanatlar da nəzərə alınırdı. Şahidlərin yanında edilən şifahi vəsiyyət zamanı şahidlər bir növ notariat xidməti göstərən etibarlı şəxsə çevrilirdilər və vəsiyyət edənin ölümündən sonra zərurət yarandıqda vəsiyyət edənin sözlərini təkrarlmaq və təsdiq etməkdən ötrü çağrılırdılar.

Azərbaycan ərazisində feodal iqtisadi münasibətlərin formalaşması eramızın III əsrinin əvvəllərinə təsadüf edir ki, həmin dövrdə notariat hərəkətlərini katiblər həyata keçirirdilər.

Tərtib edilməsi VI əsrə aid edilən “Tənsar məktubu” və 620-ci ildə tərtib edilmiş “Matikan” Azərbaycanda Sasanilərin hakimiyyəti dövrünün hüquqi abidələrinə aid edilir. “Matikan” həm də Sasani Qanunnaməsi adlanır. “Tənsar məktubu”na əsasən cəmiyyətin üzvləri dörd təbəqəyə bölünür və mirzələr, müqavilələrin tərtibi üzrə məmurlar üçüncü təbəqəyə aid edilirdi. “Matikan”da vərəsəlik məsələləri ətraflı işıqlandırılır. Həmin dövrdə vəsiyyətnamə vəsiyyət edənin mirzəyə və ya digər məmura şahidlərin yanında diqtə etdiyi, hökmən yazılı şəkildə tərtib edilən bir sənəd idi. Belə ki, baş kahin Aturpatın vəsiyyətnaməsində qeyd edilir ki, həmin sənəd vəsiyyət edənin sözlərinə - şifahi bəyanatına əsasən yazılmışdır. Sasani Qanunnaməsi qəbul edilənədək həm şifahi, həm də yazılı vəsiyyətnamə hüququ qüvvəyə malik idisə, 620-ci ildən yalnız yazılı vəsiyyətnamə etibarlı sayılırdı. “Matikan”da hal-hazırda respublikamızda bir qədər yeni notariat hərəkəti sayılan nikah müqaviləsinin bağlanması nəzərdə tutulurdu. Nikah müqaviləsi bağlanan zaman həm cehizin, həm də oğlan tərəfinin qız tərəfinə verəcəyi başlığın məbləği müəyyən edilirdi.

Ölkədə məhkəmə işlərinə kahinlər baxırdılar, notariat hərəkətlərini isə, katiblər aparırdılar.

VII-IX əsrlərdə Azərbaycan ərəb xilafətinin hakimiyyəti altında olduğu dövrdə mərkəzdə və yerlərdə məhkəmə hakimiyyətini xəlifələr tərəfindən təyin edilən qazılar həyata keçirirdilər. Qazılar məhkəmə işlərinə baxmaqdan başqa, mülki-hüquqi sənədləri tərtib edir, müqavilə və əqdləri bağlayırdılar. Qazılar həmin hərəkətlərin aparılmasına görə əhalidən haqq alırdılar.

VIII əsrin əvvəllərinə yaxın islam dini Azərbaycanda hakim dinə çevrildikdən sonra, islam dininin ayrılmaz bir hissəsi olan şəriət və müsəlman hüququ Azərbaycanın hüquq sistemində mühüm rol oynamağa başladı.

Müqavilə və onu tərtib edən barədə müqəddəs Quranın əl-Bəqərə surəsinin 282-ci ayəsində deyilir: “ ... Müəyyən müddətə bir-birinizə borc verib aldıqda, onu yazın! Bunu (bu sənədi) aranızda bir nəfər katib ədalətlə yazsın! Katib gərək Allahın öyrətdiyi kimi yazmaqdan boyun qaçırmasın, yazsın! Borcu olan şəxs borcunu söyləyərək (deyə-deyə) yazdırsın və Allahdan qorxaraq ondan (borcdan) bir şey əskiltməsin. Əgər borclu ağılsız və zəifdirsə (qoca və uşaqdırsa), yaxud söyləməyə qadir deyilsə, o zaman gərək onun (əvəzinə) vəkili ədalətlə deyib (borcu) yazdırsın. Öz adamlarınızdan iki kişini də şahid tutun! ... Şahidlər (bu işə) dəvət olunduqları zaman boyun qaçırmasınlar. Az və ya çox olmasına baxmayaraq, borcu öz vaxtına

qədər (nə müddətə verilmiş olduğunu) yazmağa tənbəllik etməyin! Sizin bu işiniz Allah yanında daha ədalətli, şahidlik üçün daha düzgün və şübhəyə düşməməniz üçün haqqa daha yaxındır."

Qazı vəzifəsinə şəriət qanunlarını mükəmməl bilən şəxslər təyin edilirdilər və qazının vəzifələrindən biri də mülki-hüquqi əqdləri və müqavilələri rəsmiləşdirmək idi.

Müsəlman hüququ mülkiyyət hüququnun yaranmasının müxtəlif yollarını nəzərdə tutmuşdur: mülki-hüquqi əqdlər; vəsiyyətnamə əsasında vərəsəlik və fəraiz, yəni qanun üzrə vərəsəlik. Müsəlman hüququna görə hər hansı bir şəxs istənilən digər bir şəxsə öz əmlakını vəsiyyət edə bilər.

Vəkalətnamələr (etibarnamələr) də VIII əsrdən başlayaraq Azərbaycanda təsdiq edilməyə başlamışdır.

XV əsrdə Azərbaycanda Şirvanşahlar, Qaraqoyunlu və Ağqoyunlu feodal dövlətləri mövcud olmuşdur. Bu dövrlərdə, bundan sonra Səfəvilər dövründə və ondan sonra da, XIX əsrin əvvəllərinə qədər müsəlman hüququ hüququn əsas cəhətlərini təşkil edirdi və notariat hərəkətlərini əvvəlki əsrlərdə olduğu kimi qazılar və mirzələr aparırdılar.

XIX əsrdən başlayaraq rəsmi sənədləşmələri tərtib edən və təsdiq edən savadlı şəxsləri daha çox mirzə adlandırdırmağa başladılar. "Mirzə" tutulu Əmir Teymur dövründən başlayaraq türk dövlətlərinin əksəriyyətində əvvəllər əsilzadə zadəganlara, daha sonra isə, həm də ziyalı, savadlı insanlara deyilirdi.

XIX əsrin əvvəllərində çar Rusiyası Azərbaycanı işğal etdikdən sonra 1814-cü ildə Qafqaz üzrə Baş Müdirin göstərişi əsasında müvəqqəti dairə məhkəmələri təsis edildi. Onlar məhkəmə, inzibati və polis işləri ilə yanaşı, notariat funksiyalarını həyata keçirirdilər. 1864-cü ildə aparılan məhkəmə islahatı isə, Rusiyada və onun əyalətlərində notariat sisteminin yenidən qurulmasına səbəb oldu. 1866-cı ildə isə, "Notariat sahəsi haqqında" Əsasnamə qəbul edilmiş və bu Əsasnamədə notarius vəzifəsinin təsis edilməsi nəzərdə tutulmuşdur.

1867-ci il dekabrın 9-da "Qafqaz vilayətində 20 noyabr 1864-cü il tarixli məhkəmə əsasnamələrinin tətbiq edilməsi barədə" qanun qəbul olundu. Həmin qanuna əsasən, Bakı dairə məhkəməsinin böyük notariusunun kontoru və onun tabeçiliyində olan Bakı quberniyasının özəl notariuslarının kontorları açıldı. Bir qədər sonra isə Qafqaz Canişininin 12 fevral 1868-ci il tarixli yazılı göstərişinə əsasən Yelizavetpol dairə məhkəməsinin böyük notariusunun kontoru və onun tabeçiliyində olan Yelizavetpol quberniyasının özəl notariuslarının kontorları yaradıldı. Daha sonralar isə, Azərbaycanın müxtəlif bölgələrində notariat kontorları açılmışdır.

1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə Azərbaycanda dövlətçiliyin yeni mərhələsi – müstəqil və demokratik idarəçilik ənənələrinin, eyni zamanda, yeni hüquq sisteminin formalaşdırılması istiqamətində işlər aparılmağa başlanıldı.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə bir gündə Ədliyyə Nazirliyi də təsis edildi. 1918-ci ilin noyabr ayının 22-də isə Ədliyyə Nazirliyinin funksiyalarını, fəaliyyət istiqamətlərini və səlahiyyətlərini müəyyən edən mühüm akt - nazirliyin Əsasnaməsi təsdiq olundu.

Ədliyyə Nazirliyi Xalq Cümhuriyyətinin mövcud olduğu qısa dövr ərzində digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərməklə yanaşı, qanunvericilik, normativ aktların hazırlanması və tətbiqi, hüquq mühafizə fəaliyyəti sahəsində önəmli işlər həyata keçirmişdir. Nazirlik ölkədə qanunçuluğun təmin edilməsi üçün qısa müddət ərzində müstəqil məhkəmə sisteminin formalaşması baxımından mühüm işlər görə bilmişdir. Nazirlər Şurasının qərarları ilə 1918-ci il oktyabr ayının 1-də Bakı Dairə Məhkəməsinin və onun tərkibində prokurorluğun fəaliyyəti bərpa edilmiş, Məhkəmə Palatasının təsis edilməsinin labüdlüyü nəzərə alınaraq noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi qəbul olunmuşdur.

28 may 1918-ci ildən 28 aprel 1920-ci ilə kimi, yəni Azərbaycan Demokratik Respublikasının dövründə də notariusların 1918-ci il mayın 28-nə kimi təsdiq etdikləri notariat aktları öz hüquqi qüvvəsini saxlayırdı, həmçinin əvvəllər fəaliyyət göstərmiş həm məhkəmələrin tərkibində olan notariat kontorları, həm də xüsusi notariuslar Azərbaycan Demokratik Respublikasını dövründə də fəaliyyətlərini davam etdirirdilər.

1920-ci il aprel inqilabından sonra Azərbaycanda notariatın hüquqi statusu surətdə dəyişdi. Xüsusi mülkiyyət ləğv edildi. 1920-ci il mayın 13-də AİK məhkəmə palatasının, Bakı və Gəncə dairə məhkəmələrinin ləğv edilməsi haqqında dekret imzaladı.

1920-ci ilin mayında Bakı Xalq Komisarları Şurasınının və Azərbaycan İnqilab Komitəsinin dekretləri ilə Azərbaycanda xüsusi qaydada fəaliyyət göstərən notariat kontorları ləğv edilib və xalq notariusları vəzifəsi təsis olunub. 1973-cü ildən sonra isə, SSRİ-də notariatın təşkili və fəaliyyəti "Dövlət notariatı haqqında" qanunla tənzimlənmişdir.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra notariat sistemi yeni mərhələyə qədəm qoydu. 1999-cu il noyabrın 26-da "Notariat haqqında" qanun qəbul edilib, 2000-ci il yanvarın 30-da isə qüvvəyə minib. Bu qanun özündən əvvəlki qanunla müqayisədə xeyli təkmilləşdirildi. Həmin qanunla xüsusi notariusların yaradılması və onlara dövlət notariusları ilə eyni hüquqlar verilməsi nəzərdə tutuldu.